Ən çox oxunan qəzet

№ 88 (4541), 2017-ci il

Qiyməti 30 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

Qəzet 1996-cı il noyabrın 1-dən çıxır

www.sherg.az

19 may
(cümə)

## Estetik klinikalar qadınları aldadır

“Endirim kampaniyasına düşdünüz, gəlin sizi gözəlləşdirək...”



**Doğrudan da son illər gözəllik şirkətlərinin nümayəndələri küçədə, ictimai-iaşə mərkəzlərində, mağazalarda qadınlara yaxınlaşıb, öz xidmətlərini təklif edirlər.**

Telefonla zəng vuraraq nömrənin guya uduşa düşdüyünü, buna görə də pulsuz kosmetoloji xidmət göstərəcəklərini söyləyirlər.

(Səh.9)

## Hacıqabulun dağ kəndləri sel suları altında qalıb

Bir çox təsərrüfatlarda ev quşları tələf olub

**Aramsız yağan yağışlar Hacıqabulun dağ kəndlərində ciddi fəsadlar törədib.**

Ötən gün yağan aramsız yağış nəticəsində Hacıqabul rayonunun Udulu qəsəbəsinə daxil Qubalı və Tava kəndləri sel sularına məruz qalıb.

(Səh.2)





## Prezident İslamiadada boks yarışlarının qaliblərini mükafatlandırıb

**IV İslam Həmrəyliyi Oyunlarının “Baku Crystal Hall”da keçirilən boks yarışları başa çatıb.**

Azərbaycan boksçuları İslamiadada 3 qızıl, 3 gümüş və 1 bürünc medal qazanıblar. Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev və ailə üzvləri yarışların final görüşlərinə baxıblar.

(Səh.2)

## Mətbuat Şurası KİVDF Müşahidə Şurasına namizədlərini müəyyənləşdirib



**Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin növbəti iclası keçirilib.** Şuradan verilən məlumata görə, iclasda Şuranın Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının üzvlüyünə namizədlərinin müəyyənləşdirilməsi müzakirə edilib.

(Səh.6)

# Qalmaqal böyüyür







## Trampın durumu ağırdır, təzyiqlər artacaq

**ABŞ Prezidenti Donald Tramp FTB-nin keçmiş direktoru Ceyms Komidən sabiq milli təhlükəsizlik müşaviri Maykl Flinnin Rusiya ilə əlaqələrini araşdıran təhqiqatı dayandırmasını xahiş edib.** Amerikalılara görə, bu addım ədalətin qarşısının alınması və cinayət əməli hesab olunur.

(Səh.4)

Günün içindən ● Günün içindən ● Günün içindən ● Günün içindən



## “Elçibəyin ailəsi kirayədə yaşayır”

10 illik qalıq müavinəti tələb edirlər

**“Bir müddətdir ki, eks- prezidentlərin prezidentlik statusu təsdiqlənib və bu qərardan sonra sabiq liderlərin ailələrinə müavinətlər ayrılıb.** Və onlar da həmin müavinətləri alırlar. Amma burada narahatlıq doğuran məsələ odur ki, 10 ilin qalıq müavinətləri hələ də verilmir”.

(Səh.5)





## Sabir qan ağlayırdı, Fazil bəy də ağladı...

**“Mirzə Ələkbər Sabir xəstəliyinin şiddətli vaxtlarında bu darısqal otaqda yaşayıb”**

**-Kitabxanaçı xanımlara təşəkkür edib çıxarkən, Sabirin dərs dediyi məktəbə də yaxınlaşıb gözlə incələdim. Məktəbin əsas hissəsi indi şadlıq evi kimi fəaliyyət göstərir...**

(Səh.7)